**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**NİZAMİ adına ƏDƏBİYYAT İNSTİTUTU**

*Əlyazması hüququnda*

**YEGANƏ NƏRIMAN QIZI QASIMOVA**

# İLYAS ƏFƏNDİYEVİN BƏDİİ PUBLİSİSTİKASI

5716.01 – Azərbaycan ədəbiyyatı

Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı-2013**

Dissertasiya Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan ədəbiyyatı tarixi kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: **Himalay Ənvər oğlu Qasımov,**
filologiya üzrə elmlər doktoru, professor

Rəsmi opponentlər: **Kamran İmran oğlu Əliyev,**
filologiya üzrə elmlər doktoru, professor

**Sara Yusif qızı Osmanova,**
filologiya üzrə elmlər doktoru

Aparıcı müəssisə: Bakı Dövlət Universiteti,
Müasir Azərbaycan ədəbiyyatı
tarixi kafedrası

Müdafiə «_24__» _01_ 2013-cü il, saat 14:00-da Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunda fəaliyyət göstərən D.01.131- Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: Az-1143, Bakı, H.Cavid prospekti, 31, Akademiya şəhərciyi, əsas bina, AMEA Nizami adına Ədəbiyyat İnstitutu.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası Mərkəzi Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat «___» ____________ 2013-cü ildə göndərilmişdir.

Dissertasiya
Şurasının elmi katibi,
filologiya üzrə elmlər doktoru: **İmamverdi Yavər oğlu Həmidov**

## *Tədqiqatın ümumi səciyyəsi*

**Mövzunun aktuallığı.** İ.Əfəndiyev XX əsr Azərbaycan ədəbiyyatının klassiki adını hələ sağlığında qazanmış qüdrətli nasir və dramaturq, xalq yazıçısıdır. Onun dram əsərləri uzun müddət Azərbaycan teatrının səhnəsindən düşməmişdir. Müəllif Azərbaycan Yazıçılar İttifaqında təşkilati iş aparmış, məsul şəxs kimi tanınmış, xalq arasında görkəmli sənətkar və ictimai xadim kimi şöhrət qazanmışdır İ.Əfəndiyevin bədii irsi ədəbi tənqid və ədəbiyyatşünaslığın həmişə maraq dairəsində olmüş, əsərləri tədqiqat predmeti olaraq araşdırılmışdır. Yazıçı XX-ci əsrin 40-cı illərindən ömrünün sonuna qədər publisistik məqalələr yazmışdır. Onların bir qismi yubiley, ad günü və bayramlar münasibətilə, bəzən ədəbi prosesin, Yazıçılar İttifaqının "sifarişi" ilə bağlı qələmə alınmışdır. Ədibin yaradıcılığının diqqətdən bir qədər kənarda qalan bu mühüm sahəsinin tədqiqinə böyük ehtiyac vardır. Yazıçının bədii publisistikasına olan müraciət də eyni məqsəddən irəli gəlmişdir. Müasirlik İ.Əfəndiyev bədii publisistikasının güclü keyfiyyət göstəricisidir. Bu, yazıçının ümumən bədii dünyagörüşü ilə bağlıdır. İ.Əfəndiyevin bədii publisistikası üçün zamanın nəbzini tutmaq və inikas etdirmək səciyyəvi keyfiyyətdir. Sənətkarın publisistikası özünəməxsus forma xüsusiyyətləri, təsvir və təhkiyə imkanlarına malikdir. İ.Əfəndiyev bədii publisistikasında da yenilikçi olmuş, ədəbi-sosial sifarişə vaxtında cavab vermişdir. Yazıçının bədii publisistikası incəsənətin müxtəlif sahələri ilə möhkəm bağlı olmuş, aktuallıq və elmi yenilik kəsb etmişdir.

İ.Əfəndiyevin bədii publisistikası müasirlərinin publisistikasından bədii dil və üslub xüsusiyyətlərinə görə fərqlənmiş, siyasi və qlobal hadisələrə estetik mündəricə, sosial münasibət baxımından operativlik ifadə etmişdir. Bu səbəbdən sənətkarın bədii publisistikasının öyrənilməsi zərurəti yaranmış və tədqiqi aktuallıq kəsb etmişdir.

**Tədqiqatın obyekti.** Tədqiqatın obyektini bütövlükdə İlyas Əfəndiyevin bədii publisistik yaradıcılığı təşkil edir. Tədqiqat

obyekti olaraq ədibin dövri mətbuatda dərc olunmuş və çoxcildlik seçilmiş əsərlərinə daxil edilmiş məqalə, çıxış və müsahibələri hərtərəfli öyrənilmiş, arxivi nəzərdən keçirilmişdir. İ.Əfəndiyevin bədii publisistikasının obyektiv tədqiqi üçün Azərbaycan ədəbiyyat tarixi və milli publisistikasının tarixinə əhatəli diqqət yetirilmişdir. Bu baxımdan problemlə bağlı mövcud monoqrafiya və dissertasiyalar da araşdırmalarımızda mənbə olmuşdur. Çalışmışıq ki, sənətkarın 200-dən artıq publisistik əsərinə sistemli elmi-nəzəri baxış formalaşmış olsun.

**Tədqiqatın elmi yeniliyi.** İndiyə qədər yazıçının publisistikasından məqalə və icmallar yazılmış, ədibin publisistik irsinə münasibət bildirilmişdir. Lakin İ.Əfəndiyev bədii publisitikasının elmi-tarixi, ədəbi-nəzəri və əxlaqi-estetik məzmunu ümumiləşdirilməmişdir.

Əfəndiyevin bədii publisistikası ilk dəfə sistemli tədqiqata cəlb olunmuş, problem tərəfimizdən dissertasiya səviyyəsində yerinə yetirilmişdir. Tədqiqat zamanı ədibin bədii publisistikasının milli və bəşəri dəyərlərinə önəm verilmiş, haqqında dolğun elmi-nəzəri fikir formalaşdırılmışdır.

İşin elmi yeniliyi bir də İ.Əfəndiyev bədii publisistikasının forma, ideya-məzmun, sənətkarlıq xüsusiyyətləri, janr tipologiyası və üslub xüsusiyyətləri baxımından öyrənilməsi ilə bağlıdır.

**Mövzunun tədqiqi tarixi.** İ.Əfəndiyevin bədii irsi həmişə diqqətdə olmuşdur. Ədəbi tənqid, ədəbiyyatşünaslıq və teatrşünaslıq onun bədii yaradıcılığına vaxtında münasibət bildirmişdir. Müəllifin bədii yaradıcılığı və publisistikası haqqında XX əsrin 40-cı illərindən başlayaraq M.Hüseyn, M.Arif, M.İbrahimov, M.Cəfər, Y.Qarayev, B.Nəbiyev, S.Əsədullayev, H.Orucəli, İ.Şıxlı, B.Vahabzadə, X.Rza, Q.Xəlilov, F.Hüseynov, X.Əlmirzəyev, C.Məmmədov və başqa ədəbiyyatşünas-alimlər, M.Rəşidov, R.Şahvələd, M.Həmidulla, M.Cavadova, Ə.Səfərova, R.Mustafayev, B.Adil, F.Kərimzadə, M.Əlizadə, T.Arazlı, M.Allahverdiyev kimi yazıçı və publisistlər, İ.Dağıstanlı, Ə.Zeynalov, A.Pənahova, S.Rüstəmov, İ.Hüseynzadə, R.Mikayılov, A.Babayev və digər mədəniyyət işçiləri məqalələr yazmış, elmi-nəzəri fikir söyləmişlər.

Y.Qarayev[1], Y.Seyidov[2], Y.İsmayılov[3], Ə.Əfəndiyev[4], A.Salahova[5], R.Sadıxov[6], A.Tahirli[7], S.Şahbazova[8] və başqaları monoqrafiya yazmış, İ.Əfəndiyevin nəsr və dramaturgiyası hərtərəfli öyrənilmişdir. Lakin İ.Əfəndiyevin publisistik irsi haqqında çox az yazılmış, ayrı-ayrı məqalələri ilə bağlı ümumi estetik fikir söylənilmişdir. Ədibin bədii publisistikası haqqında Abid Tahirli "İ.Əfəndiyevin publisistikası" adlı kitab yazmış, onun xatirələrinə, ədəbiyyat və sənət məsələlərinə, habelə, publisistikasının dil və üslub xüsusiyyətlərinə qismən nəzər yetirmişdir. İ.Əfəndiyevin bədii publisistikasına elmi-tənqidi və nəzəri baxış zəif olmuş, A.Tahirli, əsasən, publisistik yazı tərzi ilə görünmüşdür. Alim yazıçının publisistikasının xatirələr, yol qeydləri, oçerk, məqalə, resenziya, ədəbi portret janrları barəsində informasiya ilə kifayətlənmişdir. Bizi isə problemin elmi-nəzəri qoyuluşu məşğul etmiş, həlli istiqamətində mühüm elmi müddəalarımızı və nəticələrimizi irəli sürmüşük.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiyanın əsas məqsədi İlyas Əfəndiyevin bədii publisistikasının sistemli tədqiqidir.

Məqsəddən irəli gələn aşağıdakı mühüm vəzifələr yerinə yetirilmişdir:

– İ.Əfəndiyevin bədii publisistikasında ədəbiyyat və sənət məsələlərinin qoyuluşu və elmi-nəzəri həlli prinsiplərini izah etmək;

– İncəsənət, xüsusilə, kino və tamaşanın səhnə həlli, rejissor işi və aktyor oyununa yazıçı münasibətinin nəzəri-təcrübi əsaslarını müəyyənləşdirmək;

– Publisistin istifadə etdiyi ədəbi janrların tipologiyasını öyrənmək, xatirə, portret, oçerk, məktub, informasiya-xəbər, icmal, müsahibə və s. janrların özəlliklərini aydınlaşdırmaq;

---

[1] Qarayev Y. İlyas Əfəndiyev. Bakı: "Bilik cəmiyyəti", 1987, 50 s.
[2] Seyidov Y. İlyas Əfəndiyev. Bakı: "Azərnəşr", 1975, 234 s.
[3] İsmayılov Y. İlyas Əfəndiyevin yaradıcılıq yolu. Bakı: "Yazıçı", 1982, 203 s.
[4] Əfəndiyev Ə. İlyas Əfəndiyev. Bakı: "Elm", 2008, 347 s.
[5] Salahova A. İlyas Əfəndiyev yaradıcılığının poetikası. Bakı: "Yazıçı", 1984, 134 s.
[6] Sadıxov R. İlyas Əfəndiyevin ilk dramlarının səhnə təcəssümü. Bakı, 2008, 47 s.
[7] Tahirli A. İlyas Əfəndiyevin publisistikası. Bakı: "Elm", 2005, 64 s.
[8] Şahbazova S. İ.Əfəndiyevin tarixi dramları. Bakı, 2002, 196 s.

– İ.Əfəndiyevin bədii publisistikasının forma əlvanlığı, məzmun müasirliyi, habelə, süjet və kompozisiya, təsvir və təhkiyə elementlərinin fərdiliklərini göstərmək;

– Müəllifin bədii publisistikasında təzahür edən dil-üslub xüsusiyyətlərini aydınlaşdırmaq və ədəbi-estetik məziyyətlərini səciyyələndirmək;

– İ.Əfəndiyevin bədii publisistikasının ədəbi-estetik əhəmiyyətini göstərərək gəlinən elmi nəticələrinin tətbiq sahələrini göstərmək

**Tədqiqatın nəzəri-metodoloji əsasları.** Tədqiqatın konteksti XX əsr Azərbaycan publisistikası olduğundan, təbii ki, tarixi-müqayisəli və elmi-təsvir üsuluna üstünlük verilmişdir. Bununla belə, İ.Əfəndiyevin müasirlərinin elmi-nəzəri və publisistik fikirləri, habelə, ədəbi-publisistik mənbə və qaynaqlar da problemin öyrənilməsində obyektiv əsas olmuşdur.

**Tədqiqatın elmi-nəzəri və praktik əhəmiyyəti.** İ.Əfəndiyevin bədii publisistikasının tədqiqi Azərbaycan mətbuatının dinamik inkişafını, onun səciyyəvi xüsusiyyətlərini zənginləşdirmək, fərdi publisistik üslubun öyrənilməsi sahəsində elmi-nəzəri və ədəbi-estetik təcrübəni ümumiləşdirmək deməkdir. Dissertasiya işindən ali məktəblərin tələbə, magistr və doktorantları, habelə, ədəbiyyat və mədəniyyət sahəsinin yeni faktoloji mənbə kimi faydalana bilər.

Təlim və tədris sahəsini nəzərə alsaq, tədqiqat işi ali məktəb və elmi müəssisələrin filologiya, jurnalistika, teatrşünaslıq, rejissorluq və digər müvafiq şöbə, fakültə və kafedraların əməkdaşları üçün faydalı vəsaitdir.

**Tədqiqatın aprobasiyası.** Tədqiqat işi Azərbaycan Dövlət Pedaqoji Universitetinin “Azərbaycan ədəbiyyatı tarixi” kafedrasında yerinə yetirilmişdir. Mövzu “Müasir dövrdə dünya ədəbiyyatının inkişaf qanunauyğunluqları” problemi üzrə Respublika Əlaqələndirmə Şurasının iclasında təsdiq edilmişdir. Tədqiqatın mühüm elmi müddəaları AAK-ın tövsiyə etdiyi mətbuat orqanlarında, habelə, respublika və xaricdə nəşr edilmiş ədəbi-elmi jurnallardakı məqalələrdə ifadəsini tapmışdır.

**Dissertasiyanın strukturu.** Dissertasiya giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## *Dissertasiyanın əsas məzmunu*

Tədqiqatın girişində problemin aktuallığı, elmi yeniliyi əsaslandırılmış, onun işlənmə dərəcəsi, məqsəd və vəzifələri, metodoloji əsası, obyekti, işin aprobasiyası və nəzəri-praktik əhəmiyyəti göstərilmişdir.

Dissertasiyanın birinci fəsli **"İlyas Əfəndiyevin bədii publisistikasında ədəbiyyat və sənət məsələləri"** adlanır. **"Milli mətbuatımızın tarix və nəzəriyyəsinə dair"** adlı birinci bölmədə Azərbaycan publisistikasının təşəkkül tarixinə, milli maarifçiliyimizin rus və Qərbi Avropa maarifçiliyi ilə təmaslarına ümumiləşdirici nəzər yetirilmişdir.

Milli publisistikanın banisi kimi M.F.Axundzadənin ictimai-siyasi məqalələri, açıq məktublarının XIX əsr Azərbaycan ictimai-fəlsəfi fikrinin öyrənilməsi baxımından dəyərləri və sonrakı dövrün mətbuatına təsiri göstərilir. Milli mətbuatın inkişafına güclü təkan vermiş, onu forma, ideya-məzmun baxımından müəyyənləşdirmiş H.Zərdabinin publisistik fəaliyyəti və onun "Əkinçi" qəzetinin tarixi rolu xalqın milli şüuruna, Azərbaycançılıq ideologiyasını gətirmək baxımından qiymətləndirilir. Fəaliyyətində məktəb, mətbuat və tədrisi əsas tutmuş N.Vəzirov, Ə.Gorani, M.Sidqi, M.Ə.Talıbov, H.Z.Marağayi, E.Sultanov, F.Köçərli, S.Mehmandarov, M.Şahtaxtinski, T.Bayraməlibəyov, S.M.Qənizadə, N.Nərimanov, Ə.Haqverdiyev, R.B.Əfəndiyev və başqaları XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycan mətbuatını yeni məzmun və mündəricə ilə xeyli zənginləşdirmişlər. Onların demək olar ki, hamısı bədii yaradıcılıqla yanaşı, mətbuat sahəsində də çalışmış, publisistikanı mövzu, ideya-məzmun və janr cəhətindən inkişaf etdirmişlər.

Mühacir mətbuatımızın görkəmli simaları olan C.Əfqani, Ə.Hüseynzadə, Ə.Ağayev, İ.Qaspiralı, M.Ə.Rəsulzadə, Ə.Cəfəroğlu, Ə.Topçubaşov və başqaları Türkiyə, Fransa, Almaniya və başqa

məmləkətlərdə məhsuldar publisistik fəaliyyət göstərmişlər. Ə.Hüseynzadə və onun əhatəsi türkçülük, islamçılıq, Azərbaycan birliyi ideyasını və Avropaçılıq-çağdaşlıq məfkurəsini Azərbaycan mətbuatının başlıca qayəsinə çevirmişlər.

XX əsr Azərbaycan publisistikasının seçkin simaları olan C.Məmmədquluzadə, Ü.Hacıbəyov, Ö.F.Nemanzadə, N.Nərimanov bədii fəaliyyətlə yanaşı, mətbuat orqanlarında çalışmış, Azərbaycan maarifçi və tənqidi-realist fikir və düşüncələrindən qaynaqlanan publisistikaya yeni ədəbi-estetik mündəricə gətirmişlər.

"Füyuzat" və "Molla Nəsrəddin" romantik və realist məfkurəsi ilə ictimai fikri istiqamətləndirmişlər. Ə.Hüseynzadə elitar təbəqəni, ziyalılığı, C.Məmmədquluzadə isə sadə, zəhmətkeş xalqı əsas tutmuşdur. "Şərqi-rus", "Həyat", "Füyuzat", "Şəlalə", "İrşad", "İqbal", "Molla Nəsrəddin", "Rəhbər", "Dəbistan", "Babayi-əmir", "Açıq söz", "Kəlniyyət" və başqaları Azərbaycanın ictimai fikir tarixində mühüm rol oynamışlar.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə publisistika milli istiqlal, dövlət quruculuğu, iqtisadi və mədəni inkişafla bağlı olmuşdur. C.Hacıbəyli, Ü.Hacıbəyli, M.Ə.Rəsulzadə, A.Şaiq, Ə.Müznib və başqaları mətbuat dili, üslubu, əlifba, hürriyyət, hüquq və bərabərlik məsələləri ilə məşğul olmuş, dövrün publisistikasını milli istiqlal mücadiləsi motivləri ilə zənginləşdirmişlər.

Sovet dövrü publisistikası, əsasən, M.S.Ordubadi, S.Hüseyn, M.İbrahimov, M.Hüseyn, S.Rüstəm, S.Vurğun, S.Rəhimov, Ə.Vəliyev, R.Rza, Q.Məmmədli, B.Vahabzadə, S.Rəhman, M.Cəlal, Ə.Ələkbərzadə, O.Sarıvəlli və İ.Əfəndiyevlə təmsil olunmuş, vətənpərvərlik, sosial tərəqqiyə çağırış, xalqlar dostluğu və beynəlmiləlçilik ideyaları başlıca mövzu və mündəricəyə çevrilmişdir. XX əsr publisistikasının öncüllərindən olan İ.Əfəndiyev yüzlərlə məqalə yazmış, dövrün sosial sifarişinə vaxtında cavab vermişdir.

Azərbaycan publisistikasının nəzəriyyəsi sahəsində Ə.Ağaoğlu, M.Ə.Rəsulzadə, Ə.Hüseynzadə, M.Arif, M.Cəfər, Ə.Mirəhmədov, Ş.Hüseynov, V.Məmmədov, F.Mehdi, A.Abbasov, M.Qasımov,

T.Rüstəmov, Ə.Hüseynov, X.Məmmədov və başqaları konseptual fikirlər söyləmiş, kitab və monoqrafiyalar çap etdirmişlər.

Ü.Hacıbəyov, S.Vurğun, M.İbrahimov, B.Vahabzadə, M.Hüseyn, M.S.Ordubadi və başqalarının publisistik irsi ayrı-ayrılıqda tədqiqat obyektinə çevrilmişdir.

İ.Əfəndiyev ədəbiyyat, teatr, kino, kinossenari, aşıq sənəti, adət-ənənələrimiz, uşaq ədəbiyyatı, tərcümə, mətbuat, ədəbi əlaqələr, estetika, rəssamlıq, heykəltəraşlıq, musiqi sahələrinə aid fikir və mülahizələr söyləmiş, lirika, nəsr, dramaturgiya və tənqid məsələlərindən bəhs etmişdir.

Ədibin ilk məqalələri zəhmət adamlarının obrazı ilə bağlı olmuşdur. İ.Əfəndiyev öz qəhrəmanlarını quruculuq işindəki ictimai fəallığına görə deyil, həm də onların mənəvi-əxlaqi keyfiyyətinə görə tərənnüm edirdi. “Buruqlar arasında”(1938), “Tikintinin adamları”(1939), “Gəray Əsədov kolxozu”(1948), “Gənc usta”(1950), “Yeni kənd, yeni adamlar”(1950), “Fədakar neftçi”(1951), “Əmək adamları”(1951), “Pambıq tarlalarında”(1952), “Sosialist şəhəri Sumqayıtda”(1956).

I fəslin “Ədəbiyyat məsələləri” adlı II bölməsində problemə fərdi baxış daha çox subyektiv səciyyəlidir. Yəni İlyas Əfəndiyev ötən əsrin 40-cı illərindən başlayaraq ömrünün sonunadək ədəbiyyat məsələləri ilə məşğul olmuş, “Müsibəti-Fəxrəddin” tamaşası münasibətilə ilk məqaləsini dərc etdirmişdir[1]. İ.Əfəndiyevin bədii publisistikasında ədəbiyyat məsələləri mühüm yer tutur. O, ədəbiyyatımızın məzmun və forma, təbii bədii dil, obrazların təbii-psixoloji təsviri, süni, qondarma süjet və xarakter yaratmaq vərdişlərindən qaçmaq kimi ədəbi-nəzəri məsələlər ilə bağlı olan qiymətli fikir və düşüncələrini ifadə etmişdir.

İ.Əfəndiyev ədəbiyyata həm tənqid, həm də publisistika birgəliyində yanaşmış, bu səbəbdən məqalələri ədəbi-publisistik səciyyəlidir. İ.Əfəndiyev ədəbi prosesi günün tələbi kimi qavramış və qiymətləndirmiş, problemə həm nəzəri, həm də təcrübi əsasda

---

[1] Əfəndiyev İ. N.Vəzirovun “Müsibəti-Fəxrəddin” tamaşası haqqında. “Ədəbiyyat qəzeti”, 17 oktyabr 1940

yanaşmış, onu həm elmi, həm də publisistik düşüncə müstəvisində dəyərləndirmişdir. Ədib zəmanəsi ilə bağlı olduğundan onun bədii publisistikasında operativlik və çağırış əsas olmuşdur.

İ.Əfəndiyev lirikada milli və bəşəri keyfiyyət axtarmışdır. Nizamidəki etik-fəlsəfi, Sabirdəki satirik, Vaqifdəki milli dəyərləri önəmli bilən sənətkarın fikrincə, onlar bizim dünya mədəniyyəti üçün qiymətli hadisədir və bunun sirri xalqımızın müdrikliyində, dərin və çevik zəkasındadır.

Ədib lirikanın forma və məzmun müasirliyindən yazanda xalq müdrikliyini əsas götürmüş, Əli Tudəni yaralı vətən torpağının həssas liriki, usanmaz fədaisi kimi qiymətləndirmiş, O.Sarıvəllinin şeirlərinə xəlqi ruhu və həssaslığı baxımından dəyər vermişdir. Onun şeirlərində vətən, xalq, təbiət daima  bir küll halında tərənnüm olunur.

Sənətkar S.Vurğun şöhrətinin böyük sirrini onda görürdü ki, onun əsərlərində xalq ruhu, arzu və istəkləri, tarixi keçmişi, yadellilərə, yerli zülmkarlara qarşı mübarizəsi, bu mübarizənin yüksək qəhrəmanlıq pafosu real və təbii boyalarla ifadə olunmuşdu. O, S.Vurğun yaradıcılığının digər məziyyətini onun realizmindəki güclü romantik pafosunda görmüş, onun poeziya dilinin ahəngdarlığına, təbiilik və xəlqiliyinə yüksək qiymət vermişdir.

Ədib R.Rzanı xalq həqiqətlərinin, sərt gerçəklərin ifadəsiçisi kimi səciyyələndirmiş, B.Vahabzadəni zəngin şair dilinə, onun dərin məhəbbətinə və dünya mədəniyyəti ənənələrindən güc almaq keyfiyyətinə görə qiymətləndirirdi. Z.Xəlil, N.Həsənzadə, Ə.Kürçaylı və S.Rüstəm poeziyası isə daha çox təsvir və ifadə vasitələrinin yeniliyinə görə dəyərləndirilirdi.

İ.Əfəndiyev lirikadan emosiya, səmimiyyət, həssaslıq, duyğu təzəliyi, vətənpərvərlik, vətəndaşlıq, həyat həqiqəti, müasirlik və forma əlvanlığı tələb etmişdir. Onun məqalələrinin mətn strukuru, əsasən, mövzu, qüsur, təklif və nəticə kimi ümumiləşdirilmişdir.

Belə üslub müəyyənliyi onun nəsr və dramaturgiya sahələrinə həsr etdiyi fərdi (xüsusi) və ümumi (icmal) məqalələrinə də aiddir.

İ.Əfəndiyev bədii nəsrin yaradıcılıq problemlərinə aid konseptual fikirlərini müsamirələrdə, qurultaylarda söyləmiş və mətbuat səhifələrinə çıxarmışdır. Yazıçı nəsr əsərlərindən yüksək realizm və romantik ruh, qəhrəmanlarından canlılıq və dolğunluq tələb etmişdir.

Ədib C.Məmmədquluzadə, Ə.Haqverdiyev, Heminquey, Kolduelin əsərlərindən öyrənməyi tövsiyə etmiş, Ə.Ələkbərzadənin realizm və romantizminin zəif xüsusiyyətləri, İ.Qasımov və H.Seyidbəylinin "Uzaq sahillərdə" povestində süjetə aludəliliyin qüsurundan danışmış, S.Qədirzadənin "Gənclik" povestinin psixoloji, mənəvi, əxlaqi cəhətlərini, "Yoldaşlıq söhbəti" (1957) məqaləsində İ.Hüseynovun bədii dilinin obrazlılığı, yaradılmış psixoloji anların dərinliyinə görə yüksək qiymətləndirmiş, bəzən lüzumsuz təfərrüatlara vardığını da göstərmişdir. "İstedadlı nasir"[1] (1958) məqaləsində Mir Cəlal nəsrini "yeni insanın real, təbii surətini yaradan, adiliklərdən böyük ictimai nəticələr çıxarmağı bacaran yazıçı" kimi səciyyələndirmişdir.

İ.Əfəndiyev milli dramaturgiyamızın klassiklərindən M.F.Axundzadə, N.Vəzirov, Ə.Haqverdiyev, C.Məmmədquluzadə, M.İbrahimov, M.Hüseyn, C.Cabbarlı, S.Rəhman, M.Təhmasib və başqalarının əsərləri haqqında dəyərli məqalələr yazmış, "ədəbiyyat-teatr-bədii quruluş və aktyor" birliyini önə çəkmiş, milli və bəşəri dəyərlərlə qaynaqlanan klassik dramaturgiyanın yaşarı ənənələrindən, klassik dramaturqların yaradıcılıq təcrübəsindən öyrənməyə çağırmışdır.

İ.Əfəndiyev dramaturgiya haqqında yazılarında daha çox informativdir. Aydın, pafoslu, bir qədər patetik və şairanə olan təhlillərində o, faktlara dayanmış, onlara müasirlik baxımından dəyər vermiş, təbliğ etmiş, tələb və təklif vermiş, ideya-bədii məzmunlu əsərlərin yazılmasına, ədəbi prosesin düzgün yolla

---

[1] Əfəndiyev İ. İstedadlı nasir. "Ədəbiyyat və incəsənət", 26 aprel 1958

inkişafına təsir göstərmiş, məqalələrini tövsiyə, çağırış ruhunda tamamlamışdır. “Bu gün qətiyyətlə deyə bilərik ki, ədəbiyyatımızın başqa sahələri kimi dramaturgiyamız da düzgün inkişaf yolundadır...İnkişafın isə hüdudu yoxdur. Bu inkişaf mütərəqqi dünya ədəbiyyatının təcrübəsinə də biganə deyil və olmamalıdır da. Biz bu inkişafı yabançı təsirlərdən olduğu kimi, yanlış tələblərdən də qorumalıyıq!”[1].

“Bir neçə söz” (1973), “Azadlıq carçısı” (1969), “Fəryad” haqqında mülahizələrim” (1946), “Xəzər üzərində şəfəq” (1950), “Müasir dramatugiyamız” (1954), “Yağışdan çıxdıq, yağmura düşdük” (1955), “Cavan dramaturqlar” (1955), “Son illərdəki dramaturgiyamız haqqında” (1959), “Kəndçi qızı” haqqında fikirlər” (1963), “Kərəmovçuluğa atəş” (1964), “Sizi xatırlayarkən” (1966), “Sənətkarın ömür qüdrəti” (1979), “Mədəniyyətimizin parlaq ulduzu” (1982) məqalələri dramaturgiyamızda realizm və psixologizm məsələlərinə həsr olunmuşdur.

İ.Əfəndiyev ədəbiyyat məsələlərindən danışarkən teatr tənqidinə də diqqət yetirmişdir ki, bu barədə tədqiqatın sonrakı bölümündə bəhs edilir.

Fəslin **“İncəsənətin, teatr, kino və digər sahələri”** adlı III bölməsində mədəniyyət məsələləri həm birbaşa mətn-struktur, həm də məntiqi düşüncə planında verilmişdir. Ədib teatr məsələlərinə daha çox məqalə həsr etmişdir. M.Məmmədov yazırdı: “Səhnə xadimlərini və tamaşaçıları cəzb edən, onların hissinə, düşüncəsinə qida verən budur ki, İlyas artıq teatrın tələblərinə, səhnənin sirrlərinə yaxşı bələd ola bilmişdir. O, mövzu seçməyi, məntiqli süjet qurmağı, dramatik vəziyyətlər və xarakterlər yaratmağı, öz fikirlərini bəyanat yolu ilə deyil, canlı hadisələrdə, yığcam dialoqlarda əsl səhnə dili vasitəsilə ifadə etməyi gözəl bacarır”[2]. İ.Əfəndiyevin əksər məqaləsinin diqqət

---

[1] İ.Əfəndiyev. İstedad və mövzu. “Ədəbiyyat və incəsənət”, 15 may 1971

[2] Mən ellər oğluyam (S.Vurğun haqqında xatirələr). Bakı: “Gənclik”, 1984, 272 s.

mərkəzində tamaşanın səhnə həlli, rejissor işi və aktyor oyunu olmuşdur.

"Yağışdan çıxdıq, yağmura düşdük" (1955), "Dövrümüzün tələbi" (1960), "Kərəmovçuluğa atəş" 1964), "Antonio və Kleopatra" (1964), "Boy çiçəyi" (1964), "Mənim arzularım"(1968), "Mənəvi yüksəliş aynası"(1969), "Fərəhli hadisə" (1972), "Mərdlik ocağı" (1974), "Parlaq ulduz" (1985), "Zəhmət və istedad" (1986) məqalələrində mətləb tamaşanın səhnə həlli, aktyor oyunu, rejissor işi ilə bağlı olmuş, teatrdan millilik, gərgin dramatik konflikt, yenilik və təbiilik tələb edilmişdir.

İ.Əfəndiyevin bədii publisistikasının bir məziyyəti də qüsurları göstərmək və onların həlli yolları ilə bağlıdır: "... Həyatımızın böyük ideyalarından, böyük mövzularından yapışmalıyıq. Bunun üçün də xalqımızın qüdrətli yaradıcılığını dərindən duyub öyrənməklə bərabər, sənətdə xırdaçılıq, çeynənmiş melodramatik mövzular ardınca qaçmamalı, yalançı pafosa, yalançı effektə uymaq hallarına qarşı mübarizə aparmalıyıq, dövrümüzün tələbi belədir"[1].

Akademik Milli Dram Teatrının mövsümi açılışı münasibətilə yazılmış "Mənim arzularım" (1968), "Mənəvi yüksəliş aynası" (1969) məqalələrində yaradıcılığı geniş diapozona, güclü emosional təsir gücünə malik olan Adil İsgəndərov, yüksək intellektual səviyyəyə malik olan Mehdi Məmmədov, lirik-psixoloji tamaşaların istedadlı yaradıcısı Tofiq Kazımovun teatr sənətinə gətirdiyi yeniliklər göstərilirdi.

"Müasir dramaturgiyamız" (1954), "Səhnəmizin fəxri" (1957), "Son illərdəki dramaturgiyamız haqqında" (1959), "Dövrümüzün tələbi" (1960), "Azadlıq carçısı" (1969), "İstedad və mövzu" (1971), "Böyük humanist" (1972), "Zəhmət və istedad" (1986) məqalələrində teatrın nəzəriyyə və təcrübəsi, psixoloji dram, tarixi mövzu və novatorluq məsələləri təhlil predmeti olmuşdur.

İ.Əfəndiyevin "Gözəllik haqqında qeydlər"(1964), "Göy qurşağıtək"(1968), "Xanəndəlik, müğənnilik sənəti haqqında"

---

[2] Əfəndiyev İ. Dövrümüzün tələbi. Bakı: "Ədəbiyyat və incəsənət", 15 oktyabr 1960

(1977), “Müasirlik, sənətkarlıq, xəlqilik”(1980) kimi məqalələrində rəssamlıq və musiqi: Mikelancelo, Rafael, Rembrant, T.Salahov kimi dünya rəssamlarının dahiyanə əsərləri fonunda gözəllik anlayışının fəlsəfəsindən bəhs edilmişdir. Qara Qarayevin “Yeddi gözəl”, “İldırımlı yollarla” baletləri, Fikrət Əmirovun “Kürd ovşarı”, “Şur simfonik muğamları”, “Azərbaycan kapriççiosu”, Niyazinin “Rast” simfonik muğamı, Cövdət Hacıyevin “Sülh uğrunda”, Soltan Hacıbəyovun “Karvan”, Xəyyam Mirzazadənin “63-ün oçerkləri”, Rauf Hacıbəyov, Arif Məlikov, Cahangir Cahangirov, Vasif Adıgözəlov və Azər Rzayevin şəxsində simfonik musiqimizin təcrübəsi, uğur və qüsurları ümumiləşdirilmişdir.

Dissertasiyanın **“İnformasiyanın təqdimatında janr tipologiyası”** adlı II fəslinin **“Xatirə, portret, oçerk və ithaf məqalələri”** bölməsində İ.Əfəndiyevin bədii publisistikasının janr və üslub xüsusiyyətlərindən bəhs edilir. İ.Əfəndiyevin xatirə janrına müraciəti əsasən XX əsrin 80-ci illərinə aiddir. “Şuşa yollarında” (1949), “Mənim qohumum çoban Rəşid” (1983), “Dostumuzu xatırlayarkən” (1987), “Sənətkarın taleyi” (1987), “Tofiq Kazımovu xatırlayarkən”(1988), “Yeri görünən adam” (1988), “Çovğunlu bir qış günündə”(1988), “Sabit Rəhman haqqında” (1989), “Şairənin qisməti” (1990), “Orfey quyudan çıxandan sonra nə gördü?” (1991), “Hacı Axund Molla Şükürün cənnət bağı necə oldu?” (1993), “Mənim ssenari macəram, yaxud Sara xanımı birinci dəfə eşidəndə” (1993) xatirələri yol qeydləri, təəssüratlar, səfərlər, ünsiyyət və şəxsi münasibətlər zəminində meydana gəlmişdir.

Xatirələrdə İnsan fərd olaraq həm sosial-tarixi, həm də ailə-məişət planında görünür. Professor Qulu Xəlilov yazırdı ki, “...Onun bütün əsərlərində əsas, aparıcı problem müasir insan, bu insanın psixoloji, əxlaqi cəhətdən formalaşması, onun davranışı, fikir və düşüncələri, mənəvi dünyasıdır”[1].

İ.Əfəndiyevin xatiratlarında C.Cabbarlı, A.Şaiq, R.Rza, S.Rüstəm, B.Vahabzadə, B.Çobanzadə, Ə.Sultanlı, S.S.Axundov,

---

[1] Xəlilov Q. Müasir həyatımızın tərənnümçüsü. Bakı, 16 noyabr, 1974

S.Vurğun, M.Hüseyn, Zeynal Xəlil, Mir Cəlal, Ə.Vəliyev, S.Rəhman, N.Rəfibəyli, S.Qədimova, A.İsgəndərov, M.Məmmədov, T.Kazımov və başqa sənətkarların xasiyyət və davranışı, xarakter və sənətə münasibətləri dialoq və nəqletmə təhkiyəsi ilə ifadəsini tapmışdır.

İ.Əfəndiyevin portret oçerkləri hər hansı hadisə, obyekt və insan haqqında ictimai fikir və rəydir. Ədib Azərbaycan və rus incəsənət xadimlərinin portret oçerklərini yaratmışdır.

“Böyük xalq şairi”(1956), “Səhnəmizin fəxri” (1957), “İstedadlı nasir”(1958), “Şairin heykəli”(1958), “Zeynal Xəlil” (1958), “Onu xatırlayarkən”(1959), “Sizi xatırlayarkən”(1966), “Çox dəyərli yaradıcılıq ömrü”(1968), “Qüdrətli sənətkar”(1968), “Göy qurşağıtək”(1968), “Azadlıq carçısı”(1969), “Şair vətəndaş”(1970), “Böyük humanist”(1972), “Bir neçə söz”(1973), “Xalq yazıçısı”(1974), “İstedadın sönməzliyi”(1976), “Sənətkarın ömür qüdrəti”(1979), “Mədəniyyətimizin parlaq ulduzu”(1982), “Müasir problemlər yazıçısı”(1982), “Zəhmət və istedad”(1986), “Dostum haqqında söz”(1992), “Təmiz və nikbin insan”(1993) portret oçerkləri “sənət aləminin, Azərbaycan ədəbi-mədəni mühitinin bir hissəsi, bir parçası”[1] olan elm, ədəbiyyat, kino, teatr xadimləri, musiqiçi və rəssamlarımız haqqındadır. Bu səbəbdən İ. Əfəndiyevin portret oçerklərində həm də bu insanları yetişdirən ictimai mühitin, cəmiyyətin, bütövlükdə zamanın əksini görmək mümkündür.

II fəslin **“Məktub, informativ məqalə və icmal”** adlı II bölməsində müəllifin açıq məktubları sırasından “Dostluq töhfələri”(1980) və “Karvan gedir”(1990) yazıları şair və tərcüməçi Abbas Abdulla və əməkdar incəsənət xadimi Firudin Şuşalı haqqındadır. Birinci məqalədə A.Abdullanın şeir və tərcümə sahəsində xidmətlərinə yüksək qiymət verilmiş, onun Azərbaycan-Ukrayna ədəbi əlaqələri sahəsində fəaliyyəti üzərində geniş dayanmışdır. İ.Əfəndiyev hesab edirdi ki, ədəbiyyat və mədəniyyətlərin yaxınlaşdırılmasında milli və beynəlxalq əlaqələrin böyük əhəmiyyəti vardır.

---

[1] Elçin. İlyas Əfəndiyev. Şəxsiyyəti və sənəti haqqında bir neçə söz. İ. Əfəndiyev seçilmiş əsərləri. 7 cilddə. I c. Bakı: “Çinar-Çap”, 2002.

“Karvan gedir” açıq məktubu milli musiqi mədəniyyətimizin inkişafı sahəsində böyük xidmətləri olmuş F.Şuşalıya ünvanlanmışdır. F.Şuşalı o zaman milli musiqimizə dair “Azərbaycan musiqiçiləri” adlı kitab yazmış, lakin onun respublikada geniş yayılmasına imkan verilməmiş, əleyhinə məqalələr yazılmışdır. Onu müdafiə edənlər sırasında İ.Əfəndiyevin “Karvan gedir” məqaləsi də var idi.

İ.Əfəndiyevin bədii publisistikasında icmal mövzular azlıq təşkil etmiş, müsahibə janrına isə daha çox üstünlük verilmişdir.

**“Müsahibə janr tipi kimi”** bölməsində yazıçının “Ədəbiyyat və incəsənət”, “Bakı”, “Kommunist”, “Azərbaycan”, “Ulduz”, “Mədəniyyət”, “Xəzər”, “Şəhriyar” kimi mətbuat orqanları üçün verdiyi müsahibələr təhlilə cəlb olunur.

“Sənət güzəşti sevmir”(1976) müsahibəsində 70-ci illər ədəbi prosesinin ümumi mənzərəsi canlandırılmış, bədii nəsrin mövcud vəziyyətinə münasibət bildirilmişdir.

“Həyatla daim təmasda”(1981), “Həqiqi sənət yollarında”(1984),”Teatr və dramatufgiya məsələləri”(1986),”Teatr qayğıları”(1985), “Dünya geniş olsa da” (1989), “Bütün əsərlərimi qəlbimə yaxın bilirəm”(1994), müsahibələri, əsasən, nəsrdə psixologizm, Azərbaycan teatrının müasir vəziyyəti, dramaturq və teatr problemləri haqqındadır.

”İnam yoluna çıraq tutulsun gərək”(1989), “Hər bir əsərim ömrümün bir parçasıdır” (1990),”Sözü zaman deyəcək” (1991),” Dünyadan talecə incimiş adamların yazıçısı” (1992), “Çətinliklərə dözməyə məcburuq” (1992),” Sənətkar və zaman” (1995) müsahibələrində isə repressiya və insan ləyaqəti, Azərbaycanın bütövlüyü, latın qrafikasına keçidin zərurəti, ədibin yaradıcılıq laboratoriyası, xaricdə çap olunan kitabları, islam dini və mənəviyyat məsələlərindən bəhs olunur.

İ.Əfəndiyev portret, müsahibə, oçerk, etiraf, məktub, icmal kimi cevik janrlarda dəyərli nümunələr yaratmışdır.

Dissertasiyanın III fəsli **“İ.Əfəndiyevin bədii publisistikasının sənətkarlıq xüsusiyyətləri”** adlanır. Fəslin **“Forma və məzmun**

**vəhdəti”** adlanan I bölməsində bədii forma, quruluş məsələləri analiz olunmuş, İ.Əfəndiyevin bədii publisistikasının mövzu – problem– təklif – nəticə birgəliyi müəyyənləşdirilmişdir. İ.Əfəndiyev aktuallığı və müasirliyi əsas tutmuş, qüsurları göstərəndə təklif, çağırış, müraciət, göstəriş, tövsiyə etmiş, nəticə çıxarmış və ümumiləşdirmələr vermişdir. İ.Əfəndiyevin publisistik yazılarının forması, zahiri tərəfi ilə yanaşı, obrazlı emosional məzmununda da bir müasirlik ideyası, ruhi - mənəvi yaşantı, simmetriklik və daxili ahəngdarlıq olmuşdur.

Yazıçının bədii publisistikası milli - mədəni gerçəklərdən alınmış və dünya mədəniyyəti faktları ilə zənginləşdirilmişdir.

Ədibin bədii publisistikasının dili obrazlıdır. Bu ədəbi dil incə, fonetik, morfoloji və qrammatik normaları ehtiva edən, ifadəli, koloritli, yığcam, aydın, səlis, şirin, səmimi bir dildir.

İ.Əfəndiyevin publisistikasında ənənə və novatorluq üzvi əlaqədədir. Onun ənənəsi milli mədəniyyətə, dünya ədəbi fikri və bədii dilinə əsaslanır. İ.Əfəndiyev bildirirdi ki, “özümüzü – M.F.Axundovu, C.Məmmədquluzadəni, Ə.Haqverdiyevi, N.Vəzirovu, H.Cavidi, C.Cabbarlını, əlbəttə, həmişə oxumalıyıq. Odur ki, dünya ədəbiyyatının ən gözəl nümayəndələrindən də bəhrələnməliyik”[1].

İ.Əfəndiyev daim formalizm əleyhinə olmuş, məzmuna xidmət etməyən formalizmi inkar etmişdir. Müəllif sənətin mayasını, cövhərini xalq ruhunda görmüş, yalançı yeniliyin, saxta novatorluğun da əleyhinə olmuşdur. Hesab etmişdir ki: “... həqiqi yenilik, birinci növbədə xalqdan gəlir, onun böyük mübarizəsindən, irəliyə doğru hərəkətindən gəlir, tarixdə açdığı yeni səhifələrindən doğur və yeni fikirlərin, yeni ehtirasların təzahürü kimi meydana çıxır. Həqiqi novatorluq, hər şeydən əvvəl, yeni aləm, yeni tarix yaradan qəhrəmanın təsviri deməkdir.”[2].

İ.Əfəndiyev forma və məzmunu həyatın və sənətin özünün inkişaf dialektikası ilə bağlamışdır: “Həyat irəlilədikcə, insanların

---

[1] Əfəndiyev İ. Həqiqi sənət yollarında. Bakı: “Azərbaycan”, 1984, №5

[2] Əfəndiyev İ. Böyük həvəslə, yüksək bədiiliklə. Bakı: “Kommunist”, 26 mart, 1963

bir-birinə və cəmiyyətə münasibəti də dəyişir. Ona görə də ədəbi formalar statik ola bilməz, yeni məzmun yeni forma doğurmalıdır"[1]. Onun tənqidini publisistikasız, publisistikasını isə tənqidsiz təsəvvür etmək mümkün deyil.

İ.Əfəndiyev publisistikasının forma və məzmun vəhdətinin bir təzahürü də onun antitezaya köklənməsidir. Təsdiq və inkar, təqdir və qüsurun bir araya gətirilməsi ədibin bədii publisistikası üçün xarakterikdir. İ.Əfəndiyev çox vaxt təhlillərini tezis, antitezis və sintez üzərində qurmuş, faktın şərhi fonunda tələb və təkliflərini irəli sürmüşdür.

İ.Əfəndiyevin bədii publisistikasında mənsur şeirin müəyyən xüsusiyyətləri də vardır. Buraya birbaşa müəllifin yazı manerası, ritm və təhkiyə əlamətləri və s. daxildir.

İ.Əfəndiyevin bədii publisistikası təsvir və ifadə vasitələrinin zənginliyi ilə fərqlənir. A.Tahirli yazır: "İ.Əfəndiyev publisistikasının səciyyəvi və özünəməxsus cəhətlərindən biri canlı, poetik, ehtiraslı təsvirlərdir. Bu cəhət mövzularından asılı olmayaraq onun bütün əsərləri üçün xarakterikdir. İstər səyahət, yol qeydləri olsun, istərsə də xatirə tipli portret oçerklərində İ.Əfəndiyev oxucunun ruhunu oxşamağı, güclü təsvirlərlə onun qəlbinə hakim olmağı bacarır."[2] İ.Əfəndiyevin lirik-psixoloji üslubu, şairanəlik və psixoloji ovqat onun publisistik məqalələrində də özünü göstərir.

Yazıçının publisistik mətnlərində təşbeh, epitet, metafora, metonimiya, mübaliğə, təkrir və s. təsvir, ifadə vasitələri zəngindir. Bu İ. Əfəndiyev publisistik dilinin təsir gücünü və emosionallığını artırmağa xidmət edir.

III fəslin **"Təhkiyə xüsusiyyətləri"** adlı bölməsində müəllifin bədii publisistik təhkiyəsinin özəl xüsusiyyətləri aydınlaşdırılmışdır. Aydın, sadə və eyni zamanda təbii yazmaq İ.Əfəndiyevin əsas yaradıcılıq prinsipi olmuşdur. O, C.Məmmədquluzadə və Ə.Haqverdiyev ənənələrini davam etdirmişdir.

---

[1] Əfəndiyev İ. İstedad və mövzu. Bakı: "Ədəbiyyat və incəsənət", 15 may, 1971

[2] Tahirli A. İlyas Əfəndiyevin publisistikası. Bakı: "Elm", 2005, 64 s.

Müəllif dialoq və monoloqlardan ustalıqla faydalanmışdır. Daxili, psixoloji monoloq İ.Əfəndiyev təhkiyəsinin mühüm keyfiyyətidir. Müəllifin xatirələrində bu xüsusiyyət daha qabarıq gözə çarpır: "Mən artıq yazmışam ki, pyeslərimin ilk işığı fikrimə həmişə hansı mahnıyla, muğamatlasa daxil olmuşdur. "Sən həmişə mənimləsən"də "Qaragilə" mahnısı, "Mahnı dağlarda qaldı"da "Aman ovçu, vurma məni" mahnısı... "Məhv olmuş gündəliklər" pyesi mənim fikrimə "Pəncərədən daş gəlir" mahnısıyla daxil olmuşdu və mən xəyalən üç-dörd oğlanın o mahnını gənc, gözəl bir qızın evinin yanında oxuduqlarını elə hey eşidirdim."[1]

Güclü hissiyyat, təbii, emosional dialoq İ.Əfəndiyevin publisistikasının struktur komponentlərindəndir. Müəllif təhkiyəsindən aydın görünür ki, gah dialoqu "gizləmiş", gah da onu üzə çıxarmaqla təhkiyəni səngitmişdir.

İ.Əfəndiyevin publisistik təhkiyəsi emosional, bədii-obrazlı olub, canlı monoloq və dialoqla, mükəmməl ümumiləşdirmə və fərdiləşdirmə ilə müşayiət olunan, koloritli, şirin bir təhkiyədir. Müəllifin bədii təhkiyəsi danışıq dili və yazılı ədəbi dilimizin şirinliyindən bəhrələnən axıcı bir təhkiyədir.

XX əsr Azərbaycan ədəbiyyatının aparıcı simalarından olan İlyas Əfəndiyevin bədii publisistikası ədəbi irsinin tərkib hissəsidir. Bu baxımdan onun adının Üzeyir Hacıbəyov, Səməd Vurğun, Mirzə İbrahimov və Rəsul Rza ilə yanaşı çəkilməsi son dərəcə təbiidir. İ.Əfəndiyev Azərbaycan publisistikasını janr, forma, ideya-məzmun, bədii dil və üslub baxımından zənginləşdirmişdir.

Tədqiqatda İ.Əfəndiyevin bədii publisistikası müasirlik, mövzu və janr özəlliyi baxımından çeşidlənmiş, ədəbiyyat və sənət, dil və üslub məsələləri geniş şərh edilmişdir.

Yazıçının bədii publisistikası yarım əsrdən artıq bir dövrü əhatə edir, inandırıcılıq qabiliyyəti, müəllif səmimiyyəti, yüksək

---

[1] Əfəndiyev İ. Tofiq Kazmovu xatırlayarkən. Seçilmiş əsərləri. 7 cilddə, IV cild. Bakı: "Çinar-çap", 2002, 568 s.

sənətkarlıq və yazıçının bu sahənin incəliklərinə dərindən bələd olmasından xəbər verir.

Tədqiqat işində alınmış ən mühüm elmi nəticələr aşağıdakı kimi ümumiləşdirilmişdir:

1. İ.Əfəndiyev bütün məqalələrini, xalqın düşüncə və mənəvi səviyyəsini nəzərə alaraq yazmışdır.

2. İ.Əfəndiyevin bədii publisistikasının dinamik inkişafı mövzu–problem–təklif–nəticə ümumiliyindən keçir. Ədəbiyyat, teatr, kino, kinossenari, estetika, aşıq sənəti, adət-ənənələrimiz, uşaq ədəbiyyatı, mətbuat, tərcümə, rəssamlıq və musiqi publisistik mövzu predmeti olmuşdur.

3. Ədib lirika, nəsr, dramaturgiya, tənqid və estetika məsələlərinə elmi-nəzəri və publisistik planda yanaşmış, sənət əsərlərindən realizm və təbiilik tələb etmişdir.

4. İ.Əfəndiyevin ədəbiyyat və sənət məsələlərinə baxışının ideya istiqamətini ədəbiyyat–teatr–bədii quruluş–aktyor birliyi təşkil edir. O, müasirlərini və ədəbi gəncliyi klassik Azərbaycan və dünya ədəbiyyatının ənənələrindən öyrənməyə səsləmişdir.

5. İ.Əfəndiyevin bədii publisistikasının mövzu və problemləri ədəbiyyat və incəsənətlə bağlı olmuşdur. Mədəniyyət məsələləri həm mətn-struktur planında, həm də mətn içi, mətləbdən-mətləbə gerçəkləşmişdir. Yüksək bədiilik və psixoloji dərinlik tərəfdarı olan ədib Akademik Milli Dram Teatrının təcrübəsinə əsaslanmış və onu yüksək qiymətləndirmişdir.

6. Yazıçının teatra aid fikirləri, əsasən, mövzu, müasirlik, ideya, sənət meyarları, forma, təbiilik, novatorluq, psixologizm, rejissor mövqeyi, tamaşanın səhnə həlli və aktyor oyunu ilə əlaqəlidir. Müəllifin ədəbiyyat, teatr, kino, musiqi və rəssamlıqla bağlı fikir və təklifləri bu gün də elmi-nəzəri, ideya-estetik əhəmiyyətini saxlamışdır.

7. İ.Əfəndiyevin memuar-xatirə, portret, oçerk, ithaf, məktub, informativ məqalə, icmal və müsahibə janrları XX əsrin 80-90-cı illərinə aiddir. Yazılarda sənətkarın özü, ailəsi, nəsli-nəcabəti, şəcərə-yaddaşı , dövrün tarixi şəxsiyyətləri və mündəricəsi aydın

görünür. İ.Əfəndiyev bu dövrdə Azərbaycan və rus mədəniyyəti nümayəndələrinin portret oçerklərini yaratmışdır.

8. Ədib məktub, müsahibə, informativ məqalə və icmal yazıların struktur imkanlarından geniş istifadə etmişdir. Əsasən, mədəniyyət, qismən sosial-siyasi məsələləri əhatə edən müsahibələr "Ədəbiyyat və incəsənət", "Bakı", "Kommunist", "Azərbaycan", "Ulduz", "Mədəniyyət", "Xəzər", "Şəhriyar" və başqa mətbuat orqanlarında verilmişdir.

9. İ.Əfəndiyevin bədii publisistikası yetkin forma və məzmun vəhdətinə malikdir. Bədii məzmun formaya uyğun olub sosial-siyasi, ədəbi-bədii problemləri özündə ehtiva edir. Məzmunun informativliyi diqqəti cəlb edir. Müəllifin bədii publisistikası obrazlı dili və üslubu ilə səciyyəvidir.

10. İ.Əfəndiyev bədii publisistikasının lirik-psixoloji keyfiyyəti vardır. Təhkiyəsi daha çox birinci və üçüncü şəxsin təkinə əsaslanır. Müəllif təhkiyəsi güclü emosionallıq, bədiilik, müasirlik, millilik, obrazlılıq, monoloq və dialoq, ümumiləşdirmə və fərdiləşdirmə keyfiyyəti kəsb etmişdir.

İ.Əfəndiyevin bədii publisistik irsi həmişə aktual və müasirdir, ədəbi-estetik mündəricə baxımından son dərəcə əhəmiyyətlidir.

Dissertasiya işinin əsas müddəaları müəllifin aşağıdakı məqalələrində ifadəsini tapmışdır:

1. İ.Əfəndiyevin yaradıcılığında ədəbi tənqid. Azərbaycan dili və ədəbiyyatı tədrisi. Elmi-metodik jurnal. Bakı, 2009, № 2, s. 24-28.
2. İ.Əfəndiyev məqalələrinin təhkiyə xüsusiyyətləri. "Dil və ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal. Bakı, BDU, 2009, № 5 (71), s. 172-173.
3. Публицистика Ильяса Эфендиева в 50-е годы XX века «Хабаршы Вестник». Серия филологическая Алматы, 2011, № 1 (131), стр. 9-13.

4. İ.Əfəndiyev publisistikasında müsahibə janr tipi kimi. "ADPU-nun xəbərləri". Humanitar elmlər seriyası. Bakı, ADPU, 2011, № 3, s.222-227.
5. İ.Əfəndiyev publisistikasında məktub, informativ məqalə və icmal janrları. Filologiya məsələləri. Bakı, 2011, № 7, s. 394-401.
6. İ.Əfəndiyev publisistikasında xatirə janrı. "Şərq filologiyasının problemləri" mövzusunda Respublika elmi konfransının materialları. Bakı, BDU, 2011, s. 280-283.
7. İ.Əfəndiyev publisistikasında portret oçerk janrı. ADPU-nun Professor-müəllim heyətinin X elmi konfransının materialları. Bakı, ADPU, 2012, s. 213-216.
8. İ.Əfəndiyev publisistikasında teatr və sənət məsələləri. Gənc alimlərin əsərləri. Bakı, 2012, № 6, s. 244-248.

**Гасымова Е.Н.**

**Художественная публицистика Ильяса Эфендиева**

**Резюме**

Диссертация с научно-теоретической и практической точки зрения состоит из дополняющих друг-друга введения, трех глав, заключения и литературного списка.

Во вступительной части диссертации обосновывается актуальность темы, дается информация о цели и задаче исследования, научное новшество, теоретическое и практическое значение. Построение диссертации, обяснение методов и первоисточников.

Первая глава называется «Вопросы литературы и искусства в художественной публицистике И.Эфендиева» и состоит из трех подразделов.

В первом из них «Некоторые факторы истории и теории национальной прессы» публицистика представляется как один из исторически древних видов художественного творчества.

Во втором подразделе названном «Вопросы литературы» рассматриваются некоторые образцы из публицистического наследия автора посвященных вопросым литературы.

В третьем подразделе, названном «Театр, кино и другие виды исскуства на передний план выдвинуты различные статьи посвященные проблемам развития театра, кино, музыки, живописи и др. видов исскуства.

Вторая глава называется «Жанровая типология художественной публицистики И.Эфендиева». В ее первом подразделе рассматриваются «Статьи вос-поминание портрет, очерк и посвящение», во втором «Письмо, информативная статья и обзор» и в третьем подразделе анализируется «Интервю как тип жанра».

Третья глава называется «Мастерские особенности художественной публицистики И.Эфендиева» и состоит из двух подразделов: «Единство формы и содержания» и «Особенности повествования».

В первом подразделе подчеркиваются особенности построения композации и сюжета, поиски художественной формы, стремление соединить реальные и романтические картины, искусство использования образными выражениями и художественно-выразительными средствами.

Другой подраздел посвящен особенностям повествования, стиля и языка публицистики мастера, рассматриваются такие качества как, эмоциональность, историчность, художественность, новаторство, научность, образность и др.

В «Результатах» исслодевателькой работы обобщается ряд научно-теоретических выводов автора.

В конце диссертации представлен список использованной литературы.

**Gasimova E.N**

## Art Publicism of Ilyas Afandiev

## SUMMARY

From the scientific-theoretical and practical point of view the dissertation consists of supplementing each other preamble, three

chapters, conclusion and a literary list. In the introduction part of the dissertation the theme urgency is proved and also given the information on the purpose and research problem, the scientific innovation, theoretical and practical value.

Chapter One is called "Questions of the Literature and Art in I.Afandiev's Social and Political Essays" and consists of three subsections. In the first of them - "Some Factors of History and the Theory of the National Press" the art journalism is represented as one of the historically ancient kinds of art creativity.

In the second subsection named "Literature Questions and Problems" some samples from art journalism heritages of the author devoted to literature questions are considered.

In the third subsection named "Theatre, Cinema and other Art Forms" on the foreground there are pushed various clauses devoted to the problems of cinema, music, etc. as art form development.

The second chapter is called "Genre Typology of I.Afandiev’s Art Journalism ".

In its first subsection there are considered clauses, memoirs, portraits, sketches and dedications. In the second subsection samples of letters, informative clauses and reviews are given.

In the third subsection "Interview as a Genre Type” is analyzed.

The third chapter is called "Masterful Features of I.Afandiev’s Art Journalism" and consists of two subsections: “Unity of Form and Content” and “Feature of a Narration”.